İQTİSADİYYAT VƏ İQTİSADİ MÜNASİBƏTLƏR

*Azərbaycan Aqrar Elmi* 2 / 2019 *Аграрная Наука Азербайджана*

UOT 338.4

# MÜƏSSİSƏDƏ LOGİSTİKA SİSTEMİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

**M.S.HÜSEYNOVA**
**Sumqayıt Dövlət Universiteti**

*Məqalədə müəssisədə logistikanın təşkili problemlərinə baxılmışdır. Logistika sistemlərinin inkişaf etdirilməsi mərhələləri tədqiq edilmiş və bu mərhələlərin hər birinin xarakteristikası verilmişdir. Həmçinin, bu sistemlərin formalaşmasına təsir göstərən xarici mühit amilləri araşdırılmışdır.*

***Açar sözlər:*** *logistika, müəssisə, material, istehsal, marketinq, inkişaf, məhsul*

Bazar münasibətləri inkişafının indiki mərhələsində əsas problemlərdən biri məhsulun istehsalında xərclərin azaldılması və onun reallaşdırılmasıdır. Hazırda yüksək texnologiyalı, dəqiq və qənaətcil avadanlıqlardan istifadə etməklə istehsal xərclərinin minimuma endirilməsi, hazır məhsulun istehlakçıya vaxtında çatdırılması həlli tələb olunan əsas problemlərdən biridir. Bu baxımdan məhsulun paylanması prosesində xərclərin azaldılması məqsədi daşıyan logistikanın təşkili məsələləri xüsusi diqqət mərkəzindədir. Müəssisənin istehsal resurslarının idarə edilməsi mahiyyət etibarı ilə infrastruktur bölmələrinin köməyilə aparılır. Bu zaman logistik konsepsiyanın tətbiq edilməsi, müəssisənin struktur elementlərinin texnoloji aspektdən ixtisaslaşması prinsipinin qorunub saxlanılması imkan verir ki, əsas struktur bölmələri və infrastruktur kompleksləri arasında əlaqələrin inteqrativliyinə nail olunsun. Aydındır ki, istər əsas struktur bölmələri və istərsə də infrastruktur kompleksləri tamın hissələridir və belə inteqrativ əlaqələrə malik olmadan müstəqil formada fəaliyyət göstərə bilməzlər. Bu qeyd olunanlar özünün bariz nümunəsini logistikanın təşkili və idarə edilməsində tapır. Logistika iqtisadiyyatın səmərəliliyinin artırılmasında ən təsirli amillərdən biridir. Logistika sistemlərinin yaradılması sənaye müəssisələrinin istehsal fəaliyyətinin optimallaşdırılması və istehlakçılar üçün dəyər yaradan idarəetmə proseslərinin səmərəliliyi ilə bağlı xüsusi problemləri həll etməyə imkan verir.

**Logistikanın inkişaf mərhələləri.** Elmi-texniki tərəqqinin inkişaf etməsi nəticəsində bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələrin istehsalçı firma və müəssisələri ötən əsrin 60-cı illərindən etibarən özlərinin iqtisadi fəaliyyətlərinin səmərəliliyini yüksəltmək yolunda ciddi çətinliklərlə üzləşdilər. Belə ki, müxtəlif növ diskret istehsal üçün xüsusi əməliyyatların yerinə yetirilməsi müddəti orta hesabla bütün istehsal tsiklinin 6-8%-ni təşkil etməsinə baxmayaraq yerdə qalan müddətin əksər hissəsi nəqliyyat əməliyyatlarına, əmək cismlərinin istehsal istehlakına cəlb edilməsi üçün hazırlıq işlərinə və istehsalla bağlı müxtəlif xarakterli gözləmələrə sərf edilirdi. Təbii ki, bu da bir sıra iqtisadi nəticələrə, o cümlədən son məhsulun dəyərinin təqribən 40% həcmində süni artırılmasına gətirib çıxarırdı. Bu isə hər şeydən əvvəl son məhsulun yaradılması üzrə həyata keçirilən, aparılan texnoloji marşrutun texniki və təşkilati baxımdan pis təmin edilməsi ilə izah edilirdi. Daha doğrusu, diskret istehsalın ümumi həcminin 70-80%-ni təşkil edən çox nomenklaturalı istehsal proseslərində idarəetmənin keyfiyyəti və avtomatlaşdırmanın səviyyəsi son zamanlara qədər yüksək dərəcədə inkişaf etməmişdi. Bütün bunlar logistik sistemlərin yaradılması zəruriliyini ortaya qoydu [2, s.16].

Logistika sistemlərinin inkişafı bazar iqtisadiyyatı ölkələrində olduqca uzun müddətdir formalaşmış logistik konsepsiya və onun prinsipləri əsasında həyata keçirilir. Logistika sisteminin əsas məqsədi malların və xidmətlərin müəyyən bir yerə, müəyyən bir miqdarda və müəyyən bir xərc səviyyəsində çatdırılmasıdır. Müasir dövrdə mütərəqqi logistika sisteminə və logistika mexanzimlərinə artan əhəmiyyətli tələbin və zərurətin nədən və haradan qaynaqlandığı maraq doğurur. Belə ki, sənaye müəssisələrinin davamlı və sürətli inkişafı baxımından mühüm məsələlərdən biri nəqliyyat və digər xərclərin optimallaşdırılması, əsas məhsulların maya dəyərində bu xərclərin ümumi çəkisinin azaldılması ilə bağlıdır və bu proseslərdə logistika xidmətinin və sisteminin rolu böyükdür.

Logistika öz inkişafında dörd ardıcıl mərhələ keçmişdir. Logistika inkişafının birinci mərhələsi üçün aşağıdakılar xarakterikdir. Müəssisələr gündüz növbəli, gündəlik planların icrası əsasınc
lər, logistik idarəetmə forması az inkişa
Logistika sisteminin fəaliyyətinin əhatə dairəsini müəssisədən göndərilən hazır məhsulların saxlanması və onun daşınması təşkil edirdi. İkinci mərhələdə logistika sistemlərinin işinin uzunmüddətli planlaşdırılması həyata keçirilirdi. Bu sistemin işi təxminlərin və real xərclərin müqayisəsi əsasında qiymətlən-

dirilirdi. Üçüncü mərhələdə logistika sistemləri xammalın alınmasından məhsulun son istifadəçiyə çatdırılması əməliyyatlarına nəzarət edirdi. Bu sistemlərin əlavə funksiyalarına satışın proqnozlaşdırılması, istehsalın planlaşdırılması, xammal alınması və s. daxil edilmişdir. Logistika menecerinin fəaliyyəti illik plana əsaslanırdı. Onlar təkcə müəssisənin xərclərinin azaldılması üçün deyil, sistemin işinin yaxşılaşdırılması üçün də çalışırdılar [3, s.37].

XX əsrin 90-cı illərin ikinci yarısında dördüncü inkişaf səviyyəli logistik sistemlər geniş yayılmışdır. Bu mərhələdə müəssisələr logistika əməliyyatlarının planlaşdırılması və nəzarətini marketinq, satış, istehsal və maliyyə ilə birləşdirməyə başladılar. Sistem uzunmüddətli planlaşdırma əsasında idarə olunur. Sistemin işlənməsi beynəlxalq standartların tələblərini nəzərə almaqla qiymətləndirilir. Müəssisələr qlobal, milli və ya regional səviyyədə fəaliyyət göstərirlər. Ümumdünya bazarında məhsul istehsal edir, qlobal istehsal və paylama sistemlərinin bir hissəsini idarə edir. Qlobal bölüşdürmə funksiyalarının idarə edilməsi, eləcə də materialların və məlumatların axını logistika menecerləri üçün yeni tələblər qoyur. Məsələn, anbarlarda məhsulların loqistika və saxlanmasının səmərəli təşkili üçün qanunvericilik bazasının, vergi sistemlərinin və dövlət tənzimlənməsinin xüsusiyyətlərini bilmək tələb olunur. Müştəri xidmətinin səmərəliliyi mürəkkəb sənədlərin hazırlanması və emalının effektivliyi, həmçinin gömrük baryerlərinin aradan qaldırılması üzrə tədbirlərin nəticələri ilə müəyyən edilir. Bu işə digər müəssisələri də cəlb etmək gərəkdir [5, s.201].

Son illərdə inkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrdə logistikanın iş prinsipi hazır məhsulların istehsal firmalarından ixtisaslaşmış firmalara, yəni xarici agentlərə qədər yayılmasına nəzarət funksiyalarının ötürülməsi ilə xarakterizə olunur. Bu tendensiya ilk növbədə Qərbi Avropada, Yaponiyada və sonra ABŞ-da özünü göstərdi. Bu tendensiyanın inkişafı məhsulların hərəkətində əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur.

Logistika öz inkişafının dördüncü mərhələsində olduğu üçün logistik funksiyaların fəaliyyət sahəsi marketinq, satış və istehsal əməliyyatları ilə bağlıdır. Logistika və marketinq arasında çox əhəmiyyətli əlaqələr vardır. Belə ki, marketinq xidməti yeni məhsul növünə ehtiyac yaradır. Logistika xidməti isə yeni məhsul növünün hazırlanması məqsədilə inventarların idarə olunmasını, nəqlinin təmin edilməsini təşkil edir. Beləliklə, logistika marketinq strategiyasının həyata keçirilməsi üçün bir vasitə kimi qəbul edilə bilər [4, s.71].

Digər tərəfdən, son onilliklərdə dünyanın əksər ölkələrində fəaliyyət göstərən sənaye müəssisələrində, o cümlədən ölkəmizin dövlət və özəl statuslu müəssisələrində və kompaniyalarında material və xammal resurslarının fasiləsiz təminatı problemlərinin həlli istiqamətində daha mütərəqqi və məhsuldar logistika sisteminin formalaşdırılması və inkişaf etdirilməsi meylləri güclənməkdədir. Mütərəqqi logistika sisteminin təşkili və inkişaf etdirilməsi problemlərini həll etmədən sənaye məhsulları istehsalının strukturunun genişləndirilməsi vəzifəsinin öhdəsindən gəlmək mürəkkəb məsələdir. Əsas xammal və material axınlarının fasiləsiz təminatının idarə edilməsi və bu tsikl üzrə logistik əməliyyatların səmərəliliyinə nail olunması bütövlükdə hər bir müəssisənin qarşısında duran vacib məsələlərdəndir. Yuxarıda qeyd edilən fikir və mülahizələrə rəğmən, logistika sisteminin sənaye müəssisələrinin material resurslarının sabit, səmərəli və fasiləsiz təminatında mütərəqqi logistika sistemindən istifadə imkanlarının müasir dövrün adekvatlığı konteksində baxılmasının və modelləşdirilməsinin, bunlarla əlaqədər olaraq praktiki fəaliyyət mexanizmlərinin və alətlərinin təşkili problemlərinə diqqətin artırılmasının, kompleks və sistemli yanaşmanın təmin edilməsi vacibdir.

**Logistikanın təşkilinə təsir göstərən xarici mühit amilləri.** Logistikadan istifadə üzrə xarici ölkələrin təcrübəsi bir daha sübut edir ki, logistik prinsip və metodlardan istifadə edən istehsalçı müəssisələr tələb və təklifin dinamikliyi şəraitində bazar yönümlü mürəkkəb və az materialtutumlu məhsul istehsalı, habelə məhsulların yeniləşməsi səviyyəsinin qorunub saxlanılması üzrə strategiyaların hazırlanması imkanlarına malik olurlar. Bazar dinamikliyi və tələbin qeyri-müəyyənliyi böyük həcmində istehsal ehtiyatlarının yaradılmasını zəruriyyətə çevirir. Bu zaman istehsalçı hər dəfə hətta böyük olmayan istehlakçı sifarişlərinin alınması üçün çox maraqlı olur. Bunlar isə əvvəl qeyd edildiyi kimi tələbin konyunkturasını tez nəzərə ala bilən çevik istehsal gücünə tələbat yaradır və bazar uğrunda rəqabət mübarizəsinin spektrini genişləndirir. Belə bir rəqabət şəraitində istehsal olunmuş məhsulların maya dəyərinin azaldılması ənənəvi formada istehsal olunacaq məhsul partiyasının həcminin artırılması hesabına deyil, istehsal proseslərinin logistik prinsiplər və metodlarla təşkili hesabına nail olunur. İstehsalı ərazi üzrə kompakt yerləşdirilməsi istehsal logistikasının tədqiqat obyektinin xarakterik və eləcə də fərqli xüsusiyyətini səciyyələndirir [1, s.97].

Logistika sistemi çox vaxt bir neçə alt sistemdən ibarət olur və müəssisənin fəaliyyətinə təsir göstərən xarici mühitlə əlaqəlidir (Şəkil 1). Müəssisənin logistika sisteminə təsir göstərən xarici mühit amillərinə iqtisadi, hüquqi, sosial və s. amillər daxildir.

Bazarda ayrı – ayrı istehlakçılar arasında rəqabətin mövcudluğu istehlakçı sifarişlərinin artıb - azalması və ya onların yeni keyfiyyət xüsusiyyətlərinə malik olması ilə nəticələnir. Dəyişən bazar şəraitində istehlakçı tələbinin məhsul ehtiyatları hesabına ödənilməsi müəssisənin bazar aktivliyini azaldır və onu bir növ konservatora çevirir.




**Şəkil 1. Müəsisənin logistika sisteminə təsir göstərən xarici mühit amilləri**

Logistik prinsiplərlə istehsalın idarə edilməsi və təşkili isə texnoloji avadanlıqlardan yüksək istifadə səviyyəsinin saxlanılması və istehsal xərclərinin azaldılması göstəricilərinin məhsulların reallaşdırılması zamanı əldə edilən mənfəətin həcmi və ya son nəticə kimi istehsalın səmərəliliyi ilə əlaqələndirilməsini tələb edir. Başqa sözlə, istehsal olunan hazır məhsulların nomenklaturası, çeşidi, həcmi, onların real bazar qiymətləri əsasında ayrı – ayrı satış kanalları vasitəsi ilə bazarlarda reallaşma (satış) müddətləri nəzərə alınmalıdır. Daha doğrusu, logistikanın müasir paradiqması minimum logistik xərclərlə istehlakçıları tələb olunan keyfiyyətdə, kəmiyyətdə, yerdə və vaxta zəruri xammal, material və dəstləşdirici məmulatlarla təmin etməkdən ibarətdir. Bununla əlaqədar olaraq material axınlarının ilkin mənbədən son istehlakçıya qədər hərəkətinin optimal təşkili və idarə edilməsi hər şeydən əvvəl bazarda qeyri – bərabər gəlir payına malik olan istehsalçıların hazır məhsul təklifinin həcmindən və eyni zamanda ayrı – ayrı istehlakçı qrupları tərəfindən bu məhsullara olan məcmuu tələbinin həcmindən asılıdır. Satış bazarı üçün hansı məhsulların istehsal edilməsi və onların hansı məqsəd bazarına çıxarılması məsələləri birmənalı olaraq istehlakçıların tələbat paketi əsasında müəyyənləşir. Məhsulların necə istehsal edilməsi və hansı kanallarla bazara çıxarılması problemlərini isə istehsalçılar və bazar subyektləri arasında mövcud olan rəqabət mühiti müəyyənləşdirir.

**Nəticə.** Bu qeyd olunanlara əsasən, bizdə belə bir fikir formalaşır ki, hər bir sənaye müəssisəsinin material resursları və xammal axınları ilə fasiləsiz təminatı, hazır məhsulların axınının səmərəli idarə edilməsi məqsədilə optimallaşdırılmış və mütərəqqi, eyni zamanda işlək xüsusiyyətlərə malik logistika sistemi olmalıdır. Sənaye müəssisələrinin bu cür yanaşma ilə fasiləsiz olaraq xammal resurslarına olan tələbatının ödənilməsi və hazır məhsulların alıcılara çatdırılması proseslərinin optimal təşkilini təmin edən logistika sistemi müəssisənin uğurlu fəaliyyətində əhəmiyyətli mövqeyə malik struktur bölməsi kimi böyük əhəmiyyət kəsb edir.

Ümumilikdə, logistika sistemlərinin sürətli inkişafı ölkənin bazar imicini, kiçik və orta müəssisələrin mövqeyini yaxşılaşdırılmasına, investorların cəlb edilməsinə və logistika xidmətlərinin göstərilməsində innovativ texnologiyaların tətbiqinə imkan verəcəkdir.

**ƏDƏBİYYAT**

1. İmanov T.İ. Logistikanın əsasları. Bakı: Təhsil NPM, 2005, 474 s. 2. Алексеева Л.Д. Обеспечение устойчивого функционирования и развития логистической системы. С- Петербург, 2008. 155 с. 3. Аникина Б.А. Логистика. М.: ИНФРА-М, 2002. 301 с. 4. Кристофер, М. Логистика и управление цепочками поставок: учеб. пособие / М. Кристофер. - М.: Питер, 2004. 372 с. 5. Полещук И. И.. Логистика. Минск: БГЭУ, 2007. 431 с.

**Особенности организации логистических систем на предприятии**

**М.С. Гусейнова**

В статье рассмотрены проблемы организации логистики на предприятии. Исследованы этапы развития логистических систем и дана характеристика каждого этапа. Также, рассмотрены факторы внешней среды, влияющие на формирование этих систем.

***Ключевые слова:*** *логистика, предприятие, материал, производство, маркетинг, развитие, продукт*

**Features of the organization of logistic systems at the enterprise**

**M.S. Huseynova**

The article considers the problems of organizing logistics in the enterprise. The stages of development of logistics systems are investigated and the characteristics of each stage are given. Also, environmental factors affecting the formation of these systems are considered.

***Key words:*** *logistics, enterprise, material, production, marketing, development, product*

aidatagiyeva02@gmail.com